

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 146 (23.788)

*13 avqust 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenovu qəbul edib.

Prezident İlham Əliyev qeyd edib ki, onu Azərbaycanda xalqımızın böyük dostu kimi tanıyır, həm qardaş Qazaxıstan mədəniyyətinin görkəmli nümayəndəsi, həm də bütün məsələlər üzrə öz prinsipial mövqeyini hər zaman söyləmiş ictimai xadim kimi sevirlər.

Dövlətimizin başçısı Oljas Süleymenovun Azərbaycanın bir neçə ali mükafatı ilə təltif olunduğunu xatırladıb, Azərbaycanla Qazaxıstan arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə bu ilin may ayında "Şərəf" ordeni ilə təltif edildiyini bildirib və ordeni görkəmli qazax şairinə təqdim edib.

Azərbaycanın "Şərəf" ordeni ilə təltif edilməsinə görə qürur duyduğunu deyən Oljas Süleymenov dövlətimizin başçısına minnətdarlığını bildirib. O, Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi sayəsində 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını məmnunluqla vurğulayıb və həmin günlərdə mənəvi cəhətdən Azərbaycan xalqının yanında olduğunu qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyev Oljas Süleymenova "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitab hədiyyə edib.

*Dövlət proqramı icra olunur*

## Kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunması diqqət mərkəzindədir

*Hər bir ölkədə iqtisadiyyatın aparıcı sahələrindən birini kənd təsərrüfatı təşkil edir. Aqrar sektor istər əhalinin məşğulluğunun artırılması, istər ərzaq təhlükəsizliyinin təmin olunması, istərsə də sənaye sahəsinin xammal təchizatı baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Kənd təsərrüfatının önəmini xarakterizə edən əlamətlərdən biri də ondan ibarətdir ki, bu sahədə istehsal və emal olunan məhsulların çeşidi artdıqca idxaldan asılılıq da azalır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"...Qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək".***

Naxçıvan Muxtar Respublikasında ötən dövrdə aqrar sahədə həyata keçirilən islahatlar öz bəhrəsini vermiş, məhsul istehsalının həcmi artırılmışdır. Əkinəyararlı torpaqlardan səmərəli istifadə olunması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qoşulması, mütərəqqi suvarma metodlarının tətbiqi, texnika və gübrə təminatı, süni mayalanma işinə diqqətin artırılması, yeni heyvandarlıq, quşçuluq, arıçılıq təsərrüfatlarının yaradılması və digər istiqamətlərdə görülən işlər kənd təsərrüfatının yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Bu sahədə əldə edilmiş müsbət nəticələrin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" təsdiq edilmişdir. İkinci rübdə proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə başlanılmış, kənd təsərrüfatı məhsullarının istehsal, emal və ixrac potensialının gücləndirilməsi diqqət mərkəzində olmuşdur.

Muxtar respublikamızda aqrar sektorun əsas hərəkətverici qüvvələrindən biri bu sahəyə göstərilən dövlət dəstəyidir. Həm istehsal, həm də emal prosesinə verilən dəstək yeni təsərrüfatların və emal müəssisələrinin yaradılması baxımından stimullaşdırıcı xarakter daşıyır. Aprel-iyun aylarında kənd təsərrüfatı məhsulları istehsalı, eləcə də heyvandarlıq, arıçılıq, bağçılıq təsərrüfatlarının, soyuducu anbarın yaradılması, süd məhsullarının qablaşdırılması məqsədilə 39 layihənin maliyyələşdirilməsinə 1 milyon 96 min 650 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Yerli xammal ehtiyatlarından səmərəli istifadə etməklə idxaldan asılılığın minimuma endirilməsi, yeni sənaye, o cümlədən yüksək əlavə dəyər yaradan istehsal sahələrinin yaradılması məqsədilə müxtəlif istiqamətli layihələrin hazırlanması davam etdirilmişdir. İkinci rübdə muxtar respublikada 13 heyvandarlıq, 4 arıçılıq, 1 quşçuluq, 1 bağçılıq, 1 istixana, 1 tingçilik təsərrüfatının və 2 soyuducu anbarın yaradılması, 4 heyvandarlıq, 1 arıçılıq və 1 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Həmçinin bu dövrdə dövlət maliyyə dəstəyi ilə 17 heyvandarlıq, 6 arıçılıq, 2 bağçılıq təsərrüfatının, 3 soyuducu anbarın, 1 kompost və torf istehsalı, 1 süd məhsullarının emalı sahələrinin yaradılması, 2 heyvandarlıq və 1 quşçuluq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir.

Muxtar respublikada ixrac imkanlarının genişləndirilməsi üçün mühüm töhfələrdən biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Fərmanı ilə yaradılan Şərur Sənaye Məhəlləsi olacaqdır. Hazırda burada 6 istehsalat korpusundan 3-nün yaradılması istiqamətində işlər davam etdirilir. Sənaye məhəlləsində ilkin mərhələdə fəaliyyətə başlaması nəzərdə tutulan sahələrdən biri də bitki yağı istehsalıdır. Xammal bazası aqrar sektordan formalaşacaq istehsal sahəsinin yaradılması istiqamətində işlər ikinci rübdə davam etdirilmişdir. Bu istiqamətdə avadanlıqların alınması üçün Türkiyə Respublikasında fəaliyyət göstərən şirkətin nümayəndələri muxtar respublikaya dəvət olunmuş, sənaye məhəlləsinə baxış keçirilmiş və müzakirələr aparılmışdır. Dövlət proqramının icrası Şərur Sənaye Məhəlləsində yaradılması nəzərdə tutulan istehsal sahələrinin xammalla təchizatı üçün də önəmli rol oynayacaqdır.





Dövlət proqramının mühüm istiqamətlərindən birini istehsal olunan məhsulların ixrac potensialının artırılması təşkil edir. Muxtar respublikada ixracyönümlü məhsul istehsal edən sahibkarlar üçün hərtərəfli şəraitin yaradılması onları məhsul istehsalını artırmağa sövq edən stimullaşdırıcı amildir. Bununla yanaşı, ixrac potensialı olan məhsulların istehsalı ilə bağlı müxtəlif layihələrin hazırlanması və sahibkarlara təqdimatının keçirilməsi mühüm istiqamətləndirici tədbir kimi qiymətləndirilə bilər. İkinci rübdə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən meyvə araqları və tütün məmulatlarının Polşa, İran İslam Respublikası və Bakı şəhərinə maneəsiz şəkildə çıxarılması məqsədilə 5 halda mənşə sertifikatı verilmişdir. İxrac qabiliyyətli müəssisələrin istehsal potensialından tam istifadə edilməsi üçün 15 sahibkarlıq subyekti ilə birgə təhlillər aparılmış, bu müəssisələrin ixrac potensialının artırılması istiqamətində təkliflər hazırlanmışdır. Latviyanın Riqa şəhərində yerləşən "Azərbaycan Ticarət Evi"nin rəhbərinin "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində yerli məhsullarla tanışlığı təmin edilmiş, həmin məhsulların, eləcə də ailə təsərrüfatlarında istehsal olunan məhsulların ixracı istiqamətində müzakirələr aparılmışdır. İkinci rübdə muxtar respublikada istehsal olunan məhsulların xarici ölkələrdə tanıdılması məqsədilə 39 ixrac potensiallı sahibkarlıq subyektinin və ailə təsərrüfatlarının məhsullarını əks etdirən "Naxçıvan məhsulları ixrac kataloqu"nun hazırlanması başa çatdırılmış və 250 ədəd çap edilmişdir. Bu dövrdə kənd təsərrüfatı yönümlü 39 layihənin biznes planları ciddi təhlil olunmuş, bu layihələrin özünüödəmə imkanları, rentabellik göstəriciləri müəyyənləşdirilmiş, təhlilların nəticələri ilə bağlı sahibkarlıq subyektləri maarifləndirilmişdir.





Muxtar respublikamızda insan amilinə verilən dəyərin əsas təzahürlərindən biri aztəminatlı ailələrin xüsusi dövlət qayğısı ilə əhatə olunmasıdır. Bu istiqamətdə görülən işlər bir tərəfdən həmin ailələrin məşğulluğunun təmin olunması ilə maddi rifahının yüksəldilməsinə, digər tərəfdən isə bu ailələrdə istehsal olunan məhsulların daxili bazarın tələbatının ödənilməsində xüsusi yer tutmasına səbəb olur. Dövlət proqramında da özünüməşğulluq proqramı çərçivəsində aztəminatlı ailələrin məşğulluğu ilə bağlı işlərin davam etdirilməsi barədə tapşırıq nəzərdə tutulmuşdur. Muxtar respublikada ikinci rübdə 85 ailə özünüməşğulluq proqramına cəlb olunmuşdur. Onlardan kənd təsərrüfatı sahəsi üzrə fəaliyyət göstərənlərə, ümumilikdə, 96 baş iribuynuzlu, 320 baş xırdabuynuzlu heyvan, 40 arı ailəsi, 10 miniyerşumlayan aqreqat və 2 inkubator aparatı verilmişdir. Əvvəlki dövrlərdə aktiv verilmiş ailələrdən təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirənlərə, ümumilikdə, 2 arpa, buğdaqıran və 1 südsağan aqreqatın verilməsi isə özünüməşğulluq proqramı çərçivəsində işlərin davam etdirilməsinin ifadəsidir.

Naxçıvanda özünüməşğulluqda səmərəliliyin yüksəldilməsinin və alternativ gəlir mənbələrinin genişləndirilməsinin digər mühüm vasitəsi isə ailə təsərrüfatlarıdır. Onlara dövlət dəstəyinin göstərilməsi, mütəmadi olaraq görüşlərin keçirilməsi və məhsul istehsalının artırılması istiqamətində aparılan təşviqat işləri ailə təsərrüfatlarının sayının ildən-ilə artmasına və yeni fəaliyyət sahələrinə yönəlmələrinə səbəb olur. Bir çoxu kənd təsərrüfatının müxtəlif sahələri üzrə fəaliyyət göstərən bu təsərrüfatlarda istehsal olunan məhsulların satışına lazımi şəraitin yaradılması da xüsusi diqqət yetirilən məsələlərdəndir. İkinci rübdə xidmət sahələri ilə ailə təsərrüfatları arasında əlaqələrin gücləndirilməsi diqqət mərkəzində olmuş, Naxçıvan şəhəri və Babək rayonunun hər biri üzrə 11, Ordubad və Culfa rayonlarının hər biri üzrə 53, Şərur rayonu üzrə 5, Kəngərli rayonu üzrə 2 ticarət obyektində ailə təsərrüfatçılarının təqdim etdiyi məhsullardan ibarət bölmələrin ön sıralarda yerləşdirilməsi və istehlakçılara təklif edilməsi istiqamətində maarifləndirmə işi aparılmışdır.

Maarifləndirmə tədbirlərində, eləcə də Dövlət proqramının icrası ilə bağlı görülən işlərin işıqlandırılmasında kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edilməsi də diqqət mərkəzində olmuşdur. Proqramın icrasına uyğun olaraq Naxçıvan Televiziyasında 8 veriliş hazırlanmış, "Şərq qapısı" qəzetində 9 yazı dərc olunmuşdur.

*Dövlət proqramının icrası muxtar respublikada əlverişli aqrobiznes mühitinin formalaşdırılması, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və ixrac potensialının artırılması sahəsində yeni nailiyyətlərin əsasını qoyacaqdır.*

**"Şərq qapısı"**

## Səfir Corc Dik: “Düşünürəm ki, Naxçıvanla bir sıra sahələrdə əməkdaşlığımızı genişləndirməkdə böyük fayda vardır”

*İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik muxtar respublikamıza səfərinin ikinci günündə “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksində olub. Məlumat verilib ki, muzey binası 2 iş otağı və ekspozisiya zalından ibarətdir. Ekspozisiya zalında Əlincəqalada məskunlaşan insanların həyat tərzini əks etdirən maddi mədəniyyət nümunələri, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi nümunələr, Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı nəşrlər və fotoşəkillər nümayiş etdirilir.*



Əlincəqalanı ziyarət edən qonağa bildirilib ki, bərpa işləri zamanı qalanın tarixiliyi qorunub saxlanılıb. Qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunub. Qalanın zirvəsinə doğru yol çəkilib, qala ərazisində işıqlandırma sistemləri yaradılıb, oturacaqlar qoyulub, yaşıllıqlar salınıb. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Qalanın zirvəsinə gedən yolda daş üzərində həkk olunan “Tarixi yaşadanları tarix də yaşadacaqdır” fikri Əlincəqalanın bərpasının xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını bir daha təsdiq edir. Bu gün Əlincəqalanın zirvəsində Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, dövlətçiliyinin rəmzi olan üçrəngli bayrağımız dalğalanır.

“Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə gələn diplomata bildirilib ki, müqəddəs “Qurani-Kərim”də “Əl-Kəhf” surəsinin 9-27-ci ayələrində təsvir olunan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapır. Adıçəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilir. Ancaq son dövrlərdə aparılan araşdırmalar da sübut edir ki, həmin müqəddəs məkan məhz Naxçıvandadır.

Duzdağ Fizioterapiya Mərkəzi, Hüseyn Cavid məqbərəsi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlıq səfirdə qədim diyarımızın tarixi, mədəniyyəti, ədəbiyyatı və turizm potensialı barədə zəngin təəssürat yaradıb.

İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik “Şərq qapısı” qəzetinə müsahibəsində səfərinin məqsədi barədə danışıb, muxtar respublika haqqında təəssüratlarını bölüşüb:



– Naxçıvana çoxdan gəlmək istəyirdik. Ancaq pandemiya ilə əlaqədar səfərimiz bir qədər yubandı. Gəlişimizə çox şad oldum. Səfərimizin məqsədi ölkələrimiz arasında mövcud əlaqələri daha da genişləndirməkdir ki, bununla bağlı muxtar respublikada bir sıra əhəmiyyətli görüşlər keçirdik. Bərpa olunan enerji mənbələri, eləcə də su idarəetməsi istiqamətlərində danışıqlar apardıq. Görüşlər zamanı kənd təsərrüfatı sahəsi üzrə də qarşılıqlı fikir mübadiləsi oldu, gələcək perspektivləri müəyyənləşdirdik. Azərbaycanın başqa yerlərində olduğu kimi, muxtar respublikada da israilli ekspertlərin fəaliyyət göstərməsini arzu edirik. Birgə əməkdaşlıq sayəsində müasir texnologiyaların ayrı-ayrı sahələrə cəlbinə geniş imkanlar açıla bilər ki, bu da inkişaf, tərəqqi proseslərini xeyli sürətləndirər. Bildiyimiz kimi, bu gün dünyanın əksər ölkələrində su qıtlığı problemi yaşanır. Bunun qarşısını almaq üçün müxtəlif yollar mövcuddur. Müxtəlif suvarma üsul və texnolo-



giyalarından istifadə edərək suyun sərfiyyatını azaltmaqla kənd təsərrüfatının inkişafına töhfə verər, nəticədə, daha çox gəlir qazanmaq olar. Həmçinin bərpa olunan enerji mənbələri sahəsində Naxçıvanda kifayət qədər potensial vardır ki, bundan yararlanaraq böyük işlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri ilə görüş zamanı burada istehsal olunan məhsullarla tanış oldum. Fikrimcə, həmin məhsulları İsrailə ixrac etmək mümkündür və bu istiqamətdə əməkdaşlıq hər iki tərəf üçün məqsədəuyğundur. Ümumiyyətlə, düşünürəm ki, Naxçıvanla bir sıra sahələrdə əməkdaşlığımızı genişləndirməkdə böyük fayda vardır.

Əlincəqalaya, Duzdağ Fizioterapiya Mərkəzinə və gəzib-gördüyüm digər yerlərə əsasən deyə bilərəm ki, buranın əlverişli turizm potensialı mövcuddur, bu sahədə də əməkdaşlığımızı gücləndirə bilərik. Duzdağ Fizioterapiya Mərkəzində respirator xəstəliklərin müalicəsi üçün geniş imkanlar vardır ki, israilli turistlərin həm buraya gəzmək, həm də müalicə üçün gəlmələri çox yaxşı olar. Xüsusən də pandemiya ilə mübarizədə mərkəzin əhəmiyyəti olduqca böyükdür. Məndə olan məlumata görə son bir neçə ildə İsraildən Azərbaycana gələn turistlərin sayı xeyli artıb. Əgər 2016-cı ildə 10 min nəfər gəlmişdirsə, 2019-cu ildə bu say 50 minə çatıb ki, bu, böyük irəliləyişdir. Naxçıvandakı zəngin turizm potensialı ilə tanışlıqdan sonra bir daha əmin oldum ki, gələcəkdə turistlərin sayı daha da artacaq. Bu mənim Naxçıvana ilk səfərimdir, ancaq gələcəkdə yenə gəlmək fikrim var. Sonda fürsətdən istifadə edib səfərin yüksək səviyyədə təşkilinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edirəm.

**Nail ƏSGƏROV**

---

*İnkişaf edən bölgələrimiz*

## İndi bu yerlər cənnətməkana çevrilib...

***Çox sevdiyim bir atalar sözü var: Bağa baxarsan, bağ olar, baxmazsan, dağ... Bir də bu müdrik sözü tərsindən oxuyaq: Dağa baxarsan, bağ olar, baxmazsan, viran... Bağı bağ kimi saxlamaq üçün qulluq kifayət edər, dağı bağa çevirməksə, adi qulluqla mümkün deyil, bunun üçün sonsuz sevgi, müdriklik və torpağa bağlılıq gərəkdir. 17 il bundan öncə boş çöllük ərazidən başqa bir nəsnəyə rast gələ bilmədiyimiz bu günün çıraqban Kəngərlisi həmin sonsuz sevginin, müdrikliyin və torpağa bağlılığın nəticəsi kimi “dünyaya gəlib”...***



Bu gün rayon mərkəzindən ən ucqar kəndinə kimi dövlət qayğısını görən, kompleks quruculuq nəticəsində bütün sahələri abadlaşan Kəngərli rayonu yaranmasından ötən 17 il ərzində böyük inkişaf yolu keçə bilib. Tarixin müasirliklə qovuşduğu bu cənnətməkan yurd yeri ötən dövrdə ulu əcdadından qalan mirasına sahib çıxmaqla müasirlik donunu geyinə bilib. İndi hansı səmtinə üz tuturuqsa, orada bizi qədimlik və müasirlik birgə salamlayıb “xoş gəldin” edir. Və biz bu salamlamada insanların gülərüzlüyünü və xoşbəxt yaşayışını da görürük...



17 il ərzində Kəngərlidə nələr yaradılmayıb ki?! Mədəniyyətin il-



kin göstəricisi olan yol infrastrukturu tamamilə yenilənib. Dünyanın ən qabaqcıl regionlarında belə, rast gələ bilməyəcəyimiz müasir yollar salınıb. Həm də bu müasir yollar yalnız mərkəzi hissələri əhatə etmir, ucqarlara, insan ayağının dəydiyi hər bir yerə uzanır. Rayon mərkəzində, ayrı-ayrı yaşayış məntəqələrində gözəl qəsəbə və kənd mərkəzləri inşa olunub. İnsanların ayağına gətirilən xidmətlər nəticəsində indi sakinlərin uzaq yollar qət etməyinə ehtiyac yoxdur. Gərəkli nəsnələrin böyük hissəsinə hər kəs yaşadığı yerdə asanlıqla sahib ola bilir...

Görülən işlər bunlarla da bitməyib. Kəngərlidə ötən illər ərzində aparılan quruculuq işləri bütün sahələri əhatə edib. Dahi Cavidin “Bir millətin tərəqqisinə əsas səbəb” adlandırdığı məktəb quruculuğu ötən dövr ərzində bu gənc rayonun hər bir yaşayış məntəqəsində reallığa çevrilib. Əminliklə deyə bilərik ki, Kəngərlidə təhsil sahəsində quruculuq işləri artıq başa çatdırılıb. İndi övladlarımız ən müasir avadanlıqlarla təchiz edilmiş bağçalarda, məktəblərdə təhsil alır, uğurlu gələcəklərinin binasını sağlam təməllər üzərində qururlar. Müasir istilik və informasiya-kommunikasiya sistemləri, bütün növ ədəbi nümunələri özündə ehtiva edən zəngin kitabxanalar, idman qurğuları sabahımız olan uşaqları elə sabaha da güclü şəkildə hazırlayır...

Bir zamanlar səhhətimizlə bağlı kiçicik bir narahatlıqdan ötrü uzun məsafələr qət etməli olduğumuz halda, bu gün artıq görülən işlər nəticəsində səhiyyə xidməti ən yüksək səviyyədə qulluğumuzda durur. Qıvraq qəsəbəsindəki Mərkəzi Xəstəxana, yerlərdəki ambulatoriya və feldşer-mama məntəqələri müasir tibbi avadanlıqlarla təchiz edilmiş halda sakinlərin xidmətindədir. 17 il ərzində səhiyyə sahəsindəki quruculuq işlərinin yekunlaşdırıldığı Kəngərlidə tibbi xidmət də insanların baş ucunda onların sağlamlığı keşiyində durmaq üçündür.

Kəngərlidə mədəni tədbirlərin yüksək səviyyədə icra edilməsi və rayon sakinlərinin asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində də böyük işlər görülüb. Müasir üslubda tikilmiş Mədəniyyət Sarayı, rayon mərkəzində inşa olunmuş Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı, eləcə də yerlərdə parkı xatırladan qəsəbə və kənd mərkəzləri burada yaşayanların rahatlığına hesablanıb. İnsanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması siyasəti də ötən dövr ərzində yüksək səviyyədə icra edilib. Təbii qaz təchizatı rayonun ən ucqarında belə, evləri qızdırır, isti yuvaları daha da isidir. Fasiləsiz elektrik enerjisi isə qaranlıq gecələrimizi nurlu, aydın edir...

Əcdadımızdan miras qalan, bu torpaqların ata-baba yurdumuz olduğunu sübut edən tarixi-dini abidələrimiz və maddi mədəniyyət nümunələrimizin qorunaraq gələcək nəsillərə ötürülməsi də ötən illərdə diqqət və qayğıdan bəhrələnib. Dünya memarlığının şah əsərlərindən olan Qarabağlar Türbə Kompleksi, Şahtaxtı kəndindəki Şərq hamamı əslinə uyğun bərpa edilməklə, eləcə də rayon Tarix-Diyarşünaslıq Muzeyi, Şahtaxtinskilər Muzeyi və digərləri inşa olunmaqla milli kimliyimiz və milli yaddaşımızın yaşadılması təmin edilib. İndi bu tarixi yerləri ziyarət edən, burada əcdadlarımızın yaratdığı bənzərsiz memarlığı, maddi mədəniyyət nümunələrini görən gənclik milli dəyərlərə bağlı gələcəyə doğru inamla addımlaya bilir...

Ötən illər ərzində Kəngərlidə yalnız abadlıq və quruculuq işləri həyata keçirilməyib. Burada yaşayan qədirbilən insanların məşğuliyyəti və sosial rifahı üçün də mühüm addımlar atılıb. Ata-baba məşğuliyyət növləri olan əkinçilik və heyvandarlığın inkişafı diqqətdə saxlanılıb. Torpağı özünə qaytarılan əməksevər insanlar indi əkib-becərir. Müasir texnikalar, dağlar-təpələr yarılaraq min bir əziyyətlə çəkilən meliorasiya və irriqasiya sistemləri kəndlinin işləmək əzmini daha da artırıb. Əkinçiliyin inkişafı üçün yaradılan bu şərait heyvandarlığın da inkişafına təsirsiz ötüşməyib. Son dövrlərdə yaradılan ailə təsərrüfatları isə aqrar sahədə yeni mərhələnin başlanmasına səbəb olub. Beləliklə, sağlam qidalanma təmin edilib, kəndli əkdiyi, bəslədiyi heyvanlardan əldə etdiyi məhsullardan ehtiyacı üçün götürür, qalanını isə birbaşa özü yarmarkalarda satışa çıxara bilir. Bu cənnətməkanda böyük maddi vəsait hesabına inşa olunan iri sənaye komplekslərinin yanında, dövlət dəstəyi ilə yaradılmış orta və kiçik sahibkarlıq müəssisələri də insanların məşğuliyyətinin təmin edilməsi istiqamətində digər mühüm addımlardan hesab edilir. İşsizlik ucbatından daha ata-baba ocaqlarına qıfıl vurulmur, bir zamanlar köç etmiş insanlar geri qayıdır. Ocaqlarda, həmçinin toy-büsatlar qurulur, evlərdən uşaq səsləri gəlir...

***Bütün bu sadaladıqlarımızın böyük hissəsi 17 il ərzində qurulub. Bir zamanlar Naxçıvan-Sədərək magistral yolunun sağ tərəfindəki çöllük sahə indi şəhər mərkəzini xatırladır. Müasir üslubda tikilmiş yaşayış və inzibati binalar, yaşıllıqla və bir-birindən gözəl rəngarəng güllərlə bəzədilmiş bu ərazilər gün işığında cənnətməkanı xatırladır. Gün batımından sonra isə bu yerlər çıraqban olur. Bütün bunlar isə adi qulluqla başa gəlməyib. Bunun kökündə düzgün idarəetmə, sonsuz yurd sevgisi, müdriklik və torpağa bağlılıq dayanır...***

***Anar QASIMOV***
*“Yeni həyat” qəzetinin məsul katibi*

*XX əsrin əvvəllərində Azərbaycanın demokratik fikirli ziyalıları Zaqafqaziyada nəşr olunan rusdilli mətbuat orqanlarının səhifələrində Azərbaycan ədəbiyyatı və mədəniyyətinin aktual problemlərini işıqlandırmışlar. Xüsusilə həmin əsrin əvvəllərində Tiflisdə yaşayan Cəlil Məmmədquluzadə, Hüseyn Minasazov, Eynəli bəy Sultanov, Həmzət bəy Qabulov Şirvanski kimi Azərbaycan ziyalıları rusdilli mətbuatda fəal iştirak etmişlər. Azərbaycan ziyalılarının iştirak etdikləri mətbu orqanlardan biri də Tiflisdə rus dilində nəşr olunan "Zakavkazye" qəzeti olmuşdur.*

**2021-ci il "Nizami Gəncəvi ili"dir**

## Həmzət bəy Qabulov Şirvanski Nizami Gəncəvi haqqında



Bu qəzet 1906-1914-cü illərdə Tiflisdə gürcü ziyalıları tərəfindən nəşr edilmiş və Zaqafqaziya xalqlarının ədəbi-ictimai və mədəni fikrini mütərəqqi cəbhədən işıqlandırmışdır. Əslində, bu qəzet müstəqil bir orqan deyil, 1905-ci ilin 1 oktyabrında gürcü ziyalısı Parfen Aleksandroviç Qotoanın redaktorluğu ilə nəşrə başlayan "Vozrojdeniye" qəzetinin bir növ başqa adda davamıdır. Belə ki, "Zakavkazye" qəzetindən əvvəl P.A.Qotoa Tiflis şəhərində 1905-1906-cı illərdə "Vozrojdeniye" qəzetini çıxarmışdır. Lakin 1906-cı ilin 25 fevralından etibarən polis təqibləri nəticəsində "Vozrojdeniye" qapanmış və həmin ilin 20 dekabrından başlayaraq yenə də P.A.Qotoanın redaktorluğu ilə "Zakavkazye" başlığı altında nəşrə başlanılmışdır. İstər "Vozrojdeniye", istərsə də onun davamı olan "Zakavkazye" qəzetləri gürcü sosialist-federalist inqilabçılar partiyasının mətbu orqanları idi. Həmin dövrdə Parisdə bu siyasi təşkilatın "Sakartvelo" (Gürcüstan) adlı mətbu orqanı da nəşr olunurdu. Gürcüstanın milli azadlığına nail olmaq məqsədilə bu partiyanın 1902-ci ildə Parisdə ilk qurultayı çağırılmışdı.

"Vozrojdeniye" və "Zakavkazye" qəzetlərinin müsəlman şöbəsinə müxtəlif illərdə Cəlil Məmmədquluzadə, Hüseyn Minasazov, Eynəli bəy Sultanov və Həmzət bəy Qabulov Şirvanski rəhbərlik etmişlər. "Zakavkazye" qəzeti Azərbaycan klassik ədəbiyyatını da öz səhifələrində demokratik mövqedən işıqlandırmışdır. Bu sahədə Həmzət bəy Qabulov Şirvanski və Eynəli bəy Sultanov, xüsusilə fərqlənmişlər.

Qəzetin səhifələrində dərc olunan ayrı-ayrı məqalələrdə Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin, Nizami Gəncəvinin həyat və yaradıcılığından bəhs olunmuş, onların əsərlərindən nümunələr verilmişdir. Həmçinin qəzetdə ilk dəfə olaraq Mirzə Fətəli Axundovun anadan olmasının 100 illiyi və Nəcəf bəy Vəzirovun ədəbi-ictimai fəaliyyətinin 40 illiyi münasibətilə də silsilə məqalələr dərc edilmişdir.

"Zakavkazye"qəzeti yaxın keçmişdə yaşamış sənətkarlarla yanaşı, öz səhifələrində Azərbaycanın qədim dövr şairləri haqqında maraqlı məqalələr də dərc edirdi. Bu cəhətdən qəzetdə Həmzət bəy Qabulov Şirvanskinin çap etdirdiyi "Böyük şairin kölgələri" (Nizami) adlı məqaləsi klassik Azərbaycan ədəbiyyatının rus oxucuları arasında təbliği baxımından son dərəcə qiymətli idi. Çünki böyük mütəfəkkir Nizami Gəncəviyə həsr edilmiş bu məqalə özünün elmiliyi, faktların tam dürüstlüyü ilə verilməsi, həmçinin şairin həyatının və yaradıcılıq qaynaqlarının oxuculara dəqiqliklə çatdırılması baxımından seçilirdi. Məqalə müəllifi böyük şairin təvəllüd və vəfat tarixlərini də doğru göstərirdi. O, Nizaminin fars şairi olması haqqındakı yanlış elmi mülahizələri rədd edərək əsaslandırırdı ki, dahi şairin anadan olduğu və yaşadığı yer Gəncə şəhəri olmuş və onun ziyarətgaha çevrilmiş məqbərəsi də hazırda Gəncədədir. Şirvanski Nizami Gəncəvinin böyük zəkaya malik olmasını rus oxucularına çatdırmaq üçün yazırdı ki, əvvəllər lirik şair kimi şöhrət qazanan Nizaminin hazırda 20 min beytlik divanından müəyyən bir hissə əlimizə gəlib çatmışdır. Bu əsərlər onun fitri istedada, mühüm problemlər həll etmək iqtidarına malik olduğunu sübut edir. Müəllif daha sonra Nizaminin ədəbi irsinin Avropa və Asiya ölkələrində geniş yayılmasını, Peterburq, London, Leypsiq, Kəlküttə, Luknov, Lahor, Təbriz, Tehran və başqa yerlərdə özünə geniş oxucu kütləsi qazandığını qeyd edərək bildirirdi ki, bu cür bəşəri və dünyəvi şöhrət qazanan Nizami Gəncəvi yalnız Azərbaycan xalqının deyil, bütün İslam ölkələrinin şairidir. Müəllif yazırdı: "Nizaminin misli-bərabəri yoxdur. O, böyük romantik şairdir".

H.Q.Şirvanskinin bu məqaləsinin böyük elmi dəyəri bir də onda idi ki, müəllif burada Nizamini Azərbaycan və bütün müsəlman aləmi intibahının böyük nümayəndəsi kimi təqdim edirdi. O, rus oxucularına xitabən yazırdı: "Oxucu, fikrən XII-XIII əsrlər müsəlman mədəniyyəti epoxasının ən yüksək kulminasiya zirvəsinə gəlin.

Bütün yaradıcılıq sahələrində öz qüdrətli qələmləri ilə seçilən insanlara – alimlərə, yazıçı və şairlərə, musiqişünaslara, memar və sənətşünaslara rast gəlirik. Onlar tərəfindən görülən nəhəng işlər nəinki öz dövrünün, hətta gələcək əsrlərin və nəsillərin mənəvi qidası olmağa kifayət qədər bəs edər".

H.Q.Şirvanski məqalədə Nizami Gəncəvinin yaşadığı dövrü əsl mənada intibah dövrü kimi səciyyələndirir və Azərbaycan ziyalılarını müsəlman aləmində intibahın olmasını öz əməli fəaliyyətlərində sübut etməyə çağırırdı: "Esli, deystvitelno, mı imeem na eto pravo, to mı doljnı dokazat svoe probujdenie prejde vceqo vstupleniem v svoyu epoxu vozrojdeniya..."

Maraqlıdır ki, məqalənin yazıldığı 1909-cu ildə Nizami və intibah problemi Azərbaycan ədəbiyyatşünaslığında işlənməmiş bir mövzu idi və H.Q.Şirvanski ilk dəfə idi ki, bu mövzuya müraciət edirdi. Odur ki, "Zakavkazye" qəzetinin səhifələrində birinci dəfə olaraq ortaya atılmış bu problem həmin qəzetin Azərbaycan ədəbiyyatına və mədəniyyətinə, onun ictimai fikir tarixinə bəslədiyi xeyirxah münasibətini bir daha səciyyələndirir və müasir dövrümüzdə elmi ictimaiyyətin "Nizami irsi və Azərbaycan intibahı" problemini geniş miqyasda tədqiqə başladığı bir şəraitdə olduqca aktual və müasir səslənir. Doğrudan da, H.Q.Şirvanski tərəfindən vaxtilə irəli atılmış bu təşəbbüs hazırda müasir alimlərimizin diqqət mərkəzində dayanan ən aktual məsələ kimi dərindən tədqiq edilib öyrənilməkdədir. Xüsusilə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan KP MK-nın 1979-cu ilin yanvarında qəbul etdiyi "Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında"kı qərardan sonra əvvəlki tədqiqat əsərləri də daxil olmaqla, Nizami və intibah problemi Azərbaycan alimlərindən Məmməd Cəfər Cəfərovun "Nizaminin fikir dünyası", Rüstəm Əliyevin "Nizami və Azərbaycan renessansı", Qəzənfər Əliyevin "Humanist konsepsiyanın tədqiqi", Zümrüd Quluzadənin "Renessansın Şərq zəmini", Azadə Rüstəmovanın "Lirikamız və intibah", Əkbər Ağayevin "Azərbaycan intibahı problem deyil, həqiqətdir" adlı məqalələrində, o cümlədən Yaşar Qarayevin, Arif Hacıyevin, Xəlil Yusifovun və başqalarının monoqrafiyalarında daha ətraflı şəkildə tədqiq edilərək öz elmi qiymətini almaqdadır.

İntibah problemi ilə yanaşı, H.Q.Şirvanskinin məqaləsində Nizami Gəncəvinin yaradıcılığı haqqında da maraqlı fikirlər irəli sürülürdü. Müəllif "Leyli və Məcnun" və "İsgəndərnamə" poemalarının üzərində dayanaraq bu iki əsərin "Xəmsə"də xüsusi yer tutduğunu və ədəbi-ictimai arenada böyük əks-səda doğurduğunu qabarıq şəkildə nəzərə çatdırır və haqlı olaraq "Leyli və Məcnun"u Şərqin "Romeo və Cülyetta"sı adlandırırdı. Doğrudan da, ilk dəfə Nizami Gəncəvi tərəfindən qələmə alınan "Leyli və Məcnun" dastanı zəmanəmizə qədər bir çox xalqların, o cümlədən Azərbaycan xalqının yazıçı və şairlərinin, bəstəkar və musiqişünaslarının, kinematoqraflarının dönə-dönə müraciət etdikləri ədəbi mövzu olmuşdur. Təsadüfi deyildir ki, Nizami tərəfindən qələmə alınmış bu əsərə görkəmli ədəbiyyatşünas-alim Məmməd Arif öz tədqiqatlarında yüksək qiymət verərək yazırdı: "Məhəbbət mövzusunu Nizami üçüncü əsəri olan "Leyli və Məcnun" poemasında, yaradıcılığının ən coşqun illərində işləmişdir. Şərqin Romeo və Cülyettası olan Leyli və Məcnun haqqında rəvayət çox qədimdir. Lakin Nizami bu qədim xalq əfsanəsini yeni motivlər, fikirlər və epizodlarla zənginləşdirmiş, dünya ədəbiyyatına çox orijinal bir əsər vermişdir".

Bu fakt bir daha sübut edir ki, H.Q.Şirvanski poemaya yüksək qiymət verdiyi zaman öz mülahizələrində yanılmamışdır.

Məqalədə diqqət vacib bir məsələyə də cəlb edilir ki, bu da Nizami məqbərəsinin acınacaqlı olması və onun abadlaşdırılmasının zəruriliyi idi. Müəllif ürəkağrısı ilə yazırdı ki, 800 ilə yaxın xalq tərəfindən mühafizə olunan bu məqbərəni tarixi bir abidə kimi bərpa etmək vacibdir. Həmzət bəy Qabulov bu fikirləri ilə vaxtilə "Molla Nəsrəddin" jurnalının bu sahədə qaldırmış olduğu təşəbbüsü, bir növ, yenidən canlandırırdı. Çünki bu haqda əvvəllər "Molla Nəsrəddin" jurnalı da məsələ qaldırmış, hətta məqbərənin təmiri üçün ianə də toplanılmışdır. Jurnalın bu xeyirxah təşəbbüsü bir sıra mütərəqqi fikirli şəxslər tərəfindən rəğbətlə qarşılanmış, həmçinin Mirzə Məhəmməd Axundovun müəllifliyi ilə Gəncədə "Şeyx Nizami" adlı xüsusi kitabça buraxılmışdı. Az müddət içərisində həmin kitabça satılmış, lakin təəssüf ki, istər "Molla Nəsrəddin" jurnalı, istərsə də "Şeyx Nizami" kitabçası vasitəsilə əldə edilən vəsait heç bir səmərə verməmişdir. Odur ki, "Molla Nəsrəddin"dən sonra bu təşəbbüsü yenidən qaldıran H.Q.Şirvanski öz məqaləsini Nizami haqqında zəruri tələblərlə yekunlaşdırırdı.

H.Q.Şirvanski ilə yanaşı, E.Sultanov da Nizami məqbərəsinin abadlaşdırılmasının zəruriliyini bildirir və "Zakavkazye" qəzetində çap etdirdiyi "Moqila Şeyx Nizami" ("Şeyx Nizaminin məqbərəsi") adlı yazısında diqqəti bir nəfər gəncəli müxbirin "İqbal" qəzetində dərc etdirdiyi məqaləyə yönəldirdi. E.Sultanovun məlumatına görə, məqalədə Nizaminin ömrünün çox hissəsini İranda keçirməsi və orada təhsil alması haqqındakı yalnış mülahizələrinə baxmayaraq, gəncəli müxbir "İqbal"ın oxucularına bildirirdi ki, "Şeyx Nizami" kitabçası böyük şairə heykəl qoyulması və onun məqbərəsinin abadlaşdırılması məqsədilə nəşr olunub satılmışdır. Lakin bu vaxtadək kitabçadan əldə olunan vəsait nədənsə abadlaşdırma işlərinə sərf edilməmişdir. E.Sultanov bildirirdi ki, gəncəli müxbir həmin vəsaiti Nizami məqbərəsinin abadlaşdırılmasına sərf edilməsini qətiyyətlə tələb edir.

XX əsrin əvvəllərində rusdilli mətbuatda dahi klassik şairimiz Nizami haqqında dərc olunmuş məqalələrin tədqiqi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ilin Azərbaycan Respublikasında "Nizami Gəncəvi ili" elan edilməsi haqqında 2021-ci il 5 yanvar tarixli Sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi baxımından da əhəmiyyətli və aktualdır.

**Əsgər QƏDİMOV**
*filologiya elmləri doktoru, professor*

---

*Estafet*

## Silahı məhəbbət, ilk sözü, son sözü Vətən oldu İlkinin



*Gəldi ürəkdəki arzular dilə,*
*Silahı məhəbbət, son sözü Vətən.*
*Şəhidlər göstərdi ölümləriylə*
*Ölüm aşağıdır Vətən eşqindən.*

Vətən! Bu söz bizim hamımız üçün müqəddəsdir, doğmadır, əzizdir. Elə bu səbəbdəndir ki, bir qarış torpağına yağı əli uzananda sipər olur sinələr onun uğrunda. Hələ lap qədimdən Azərbaycan xalqı öz torpağını, yurdunu, doğma Vətənini göz bəbəyi kimi qoruyub, düşmən əlləri torpağımıza uzananda canlarını Vətən uğrunda qurban verməyə hazır olublar. Odlar Yurdunun övladları döyüşə atılarkən, sadəcə, bir cümlə dillərdə səslənir: "Vətən sağ olsun!" Vətən həmişə dilimizin əzbəri, qəlbimizdə ümmanlara sığmayacaq məhəbbət bəslədiyimiz səcdəgahımızdır. Bu gün Vətənimiz 44 gün ərzində təpədən dırnağadək Vətən sevgisi ilə silahlanan igid oğullarımızın torpaqlarımızı qarış-qarış düşmən tapdağından xilas edib, ayulduzlu, üçrəngli bayrağımızı əzəli və əbədi torpaqlarımızda qaldıraraq əldə etdikləri böyük zəfərə şahidlik edir.

Tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsində əldə olunan böyük zəfərimiz Azərbaycan xalqının mübarizliyini bir daha bütün dünyaya nümayiş etdirdi. 30 il ərzində sülh yolu ilə geri alınmasına nail ola bilmədiyimiz torpaqlarımız müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusu tərəfindən 44 gün ərzində düşməndən azad edildi. Tarixin şanlı səhifələri içərisində igidlər yurdu Naxçıvanın mərd oğulları da iştirak edib, şəhidlik məqamına yüksəldilər. Belə igidlərdən olan şəhid İlkin Muradlı ailənin ilk övladı idi. O İlkin ki bu torpaq uğrunda canından keçib, toy paltarı əvəzinə torpağı özünə şöhrət libası seçdi, məhəbbəti qanlı qərənfil çələnginə döndü. O İlkin ki "Özümüz qurban getsək də, torpağımızın bir qarışından belə, keçmərik", – dedi. O İlkin ki Tovuzdan Murova, Murovdan Şuşaya qədər döyüş yolu keçdi və ən uca məqama – şəhidlik zirvəsinə ucaldı... Buna İlahinin yazısımı deyim, ya taleyin hökmümü...

İlkin Muradlı 27 sentyabr 1995-ci ildə Şahbuz rayonunda anadan olmuşdu. İbtidai təhsilini Şahbuz şəhər tam orta məktəbində almışdı. Qəlbinə hakim kəsilən hərbçi olmaq arzusuna heç kəs mane ola bilmədi. İlkin Heydər Əliyev adına Hərbi Liseyə daxil olub, 2013-cü ildə həmin məktəbdə təhsilini başa vurdu. Sonra seçdiyi yol onu Bakıya – Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə apardı. 2017-ci ildə bu məktəbi bitirərək leytenant rütbəsində Gəncəyə göndərildi. Əvvəlcə Gəncə, Ağstafa, sonra isə Tovuzda qüsursuz xidmət etdi. Elə bu xidmətlərinə görə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olundu.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu atəşkəs rejimini pozaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövqelərinə və yaşayış məntəqələrimizə iriçaplı silahlardan atəş açması ordumuzun əks-hücuma keçməsi ilə nəticələndi. Bu döyüşlərdə irəlidə gedənlərdən biri də İlkin oldu. Özü də xüsusi təyinatlı kəşfiyyatçı kimi. İlkinin qəhrəmanlığı göz qabağındadır. Ondan çox danışmaq, çox yazmaq olar. Qərara gəldim ki, ölməz qəhrəmanımızı daha da yaxından tanıyım. Bu məqsədlə şəhidin doğulduğu evə üz tutdum. Şəhid anası Həcər xanımın danışdıqca, özündən ixtiyarsız, sakit-sakit gözlərindən üzüaşağı yuvarlanan göz yaşlarını gördükcə düşünürdüm ki, sanki bu damlalar böyük bir qürurun, başucalığının ümmanı, dənizidir. Həcər ana deyir ki, İlkin çox ailəcanlı idi. Vətənini, validеynlərini canından belə, çox sevirdi. Bir qohumun doğum gününü belə, unutmazdı. İlkinin xüsusi əl qabiliyyəti, əl işləri də var idi. Naxışlarla üzərinə sözlər işlənmiş dəsmalı 8 Mart – Beynəlxalq Qadınlar Günündə anası Həcər xanıma hədiyyə göndərmişdi.

Şəhid atası İlyas kişi isə İlkinin ölümünə heç inana bilmir. Deyir ki, elə bilirəm, indicə zəng vurub hal-əhvalımı soruşacaq. İlkin haqqında ən çox danışan isə ailənin sonbeşiyi Elşən oldu: "Böyük itkidir qardaş itkisi. Təskinliyimiz ondadır ki, qardaşım qəhrəmanlıq göstərərək ən uca zirvəyə – şəhidlik zirvəsinə ucalıb. Doğum günümdən bir neçə gün əvvəl onunla danışanda zarafatla soruşdum ki, bəs bu doğum günümdə mənə nə alacaqsan? Dedi ki, bu dəfə sənə Qarabağı alacağam. Döyüşlərin birində komandirinin şəhid olduğunu dedi, həmin gün çox kədərli idi. Axırıncı dəfə mənimlə danışanda dedi ki, bu dəfə mən şəhid olmağa gedirəm, komandirimin qisasını almalıyam.

İlkin döyüşlərdə misilsiz igidlik göstərib, əlbəyaxa döyüşlərdə iştirak edib, düşmənin canlı qüvvəsi ilə yanaşı, hərbi texnikasını da məhv edib. Elşən onu da söylədi ki, qardaşı, sanki döyüşə hazırlıq görüb getmişdi. Qaldığı otaqda hər yan səliqəli, paltarları ütülü, istifadə etdiyi əşyalar da öz yerində. Noyabrın 9-da qəhrəmancasına həlak olub İlkin. Amansız əcəlin onu bizim əlimizdən belə tez alması göynədir məni. Ancaq bir təsəllimiz var: Qarabağ bizimdir! İndi torpaqlarımız düşmən tapdağı altında deyil. Həm də qardaşım bu dünyadakı son sözünə və istəyinə nail oldu: Qarabağ azad olundu və o, şəhidlik məqamına yüksəldi...

Onu da qeyd edim ki, İlkin Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Vətən uğrunda", "Döyüşlərdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Odlar Yurdu Azərbaycan ürəyimizin odu, hərarəti, sevgisi və arzularıdır. Qucağında boy atıb qanadlandığımız ulu, müqəddəs Vətənimizdir. İndi Qubadlı, Kəlbəcər, Zəngilan, Füzuli, Cəbrayıl, Ağdam, Laçın, Şuşa bizimdir. O torpaqlarda axan hər şəhid qanı oranı daha da müqəddəsləşdirib. Artıq Qarabağımızda üçrəngli Azərbaycan bayrağı dalğalanır. Müzəffər Azərbaycan Ordusu torpaqlarımızda vəzifələrini şərəflə yerinə yetirir. Ona görə də canınızı fəda etdiyiniz Vətən torpağında rahat yatın, şəhidlər!

**Nuray QULİYEVA**
*Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin*
*Müalicə işi ixtisası üzrə VI kurs tələbəsi*



# Oxucu məktubları



## Şəhidə ehtiram böyük təsəllidir

*“Şərq qapısı” qəzetinin redaksiyasına!*

Bu məktubu sizə ünvanlamaqda məqsədim Naxçıvan haqqında təəssüratlarımı bölüşməklə yanaşı, muxtar respublikada şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə bütün şəhid valideynləri adından muxtar respublika rəhbərinə öz minnətdarlığımı bildirməkdir.

Əvvəlcə onu qeyd etmək istəyirəm ki, oğlum şəhid polkovnik-leytenant Anar Əliyevə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr və 15 dekabr tarixli sərəncamları ilə ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adı verildi və “Vətən uğrunda” medalları ilə təltif olundu. Mən və digər bir şəhidimizin ailə üzvləri medalları almaq üçün Naxçıvan Muxtar Respublikasına dəvət olunduq. Naxçıvan Beynəlxalq Hava Limanında muxtar respublika nümayəndələri bizi yüksək qonaqpərvərlik və ehtiramla qarşıladılar, şəhərin ən yaxşı otellərinin birində yerləşdirdilər. Səhəri günü övladımın xidmət etdiyi hərbi hissədə oldum. Onun xidmət apardığı bu yerləri görmək, dostları ilə həmsöhbət olmaq kədərli olduğu qədər də qürurverici idi.

Daha sonra Ali Məclisin Sədri cənab Vasif Talıbov, Əlahiddə Ümumqoşun Ordu komandanı Kərəm Mustafayevin də iştirakı ilə bizi qəbul edərək səmimi söhbət etdi. Bizə göstərilən bu qayğı, şəhidimə ehtiram və səmimiyyət məndə muxtar respublika rəhbəri haqqında ən yaxın, doğma insan təəssüratı yaratdı.

Naxçıvanda olduğum müddətdə tanıyan, bilən hər kəs bizə çox böyük qayğı göstərdi. Onu da qeyd edim ki, Vətən müharibəsində Azərbaycanın bütün bölgələri kimi naxçıvanlı gənclərin də şücaəti danılmazdır. Biz 44 günlük müharibə dönəmində baş verən hər bir hadisəni media vasitəsilə muxtar respublikanın aparıcı mətbuat orqanı olan “Şərq qapısı” qəzetinin internet saytından müntəzəm izləyirdik. Muxtar respublikaya gətirilən hər bir şəhidi Ali Məclis Sədrinin şəxsən özünün qarşılaması isə qəhrəman oğullarımıza göstərilən ehtiramın ən yüksək nümunəsi idi. Naxçıvanda onun da şəhidi oldum ki, istər onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, istər qazilərimizin minik avtomobilləri ilə təmin olunması, ümumiyyətlə, şəhid ailələri və qazilərin qayğıları burada dövlət qurumları üçün bütün işlərin ən zərurisi hesab olunur.

Mən bir daha bütün şəhid ailələri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova bu böyük qayğıya görə minnətdarlığımı bildirirəm.

**Vaqif ƏLİYEV**
***Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Əliyevin atası***

*Razılıq*

## Şəhid ailələrinə diqqət və qayğı ilə yanaşılır



***Salam, hörmətli redaksiya!***

Mən İkinci Qarabağ müharibəsinin qəhrəmanı Sərxan Salahovun anasıyam. O, şəhid olanda qolum-qanadım sınmışdı, kimsəsiz, əlacsız qaldığımı düşünürdüm. Amma gördüm ki, şəhid anası heç vaxt tək qala bilməz. Çünki o, bütün Azərbaycan övladlarının anası olur övladı şəhidlik məqamına yüksələn gündən. Mən bütün şəhidlərin valideynləri adından, öz adımdan dövlətimizə minnətdarlığımı bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlətimiz tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərilir, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Qeyd etmək istərdim ki, ömrümün çoxunu köhnə, yararsız vəziyyətdə olan evdə keçirmişəm. Yaşım da artıq öz sözünü deyir. Yararsız vəziyyətdə olan evdə hər gün təmirə ehtiyac duyulurdu. Qışda evdə qaz sobası yansa da, isinmir, yayda isə istidən yaşamaq mümkün olmurdu. Nə isə sözümün canı odur ki, bu il, Şərur şəhərində bir bina inşa edilirdi. Nə gizlədim, həmin binanın yanından ötəndə mənim də ürəyimdən yaşamın bu çağında rahat bir mənzildə yaşamaq keçmişdi. Günlər ötdü, bina hazır oldu və bir gün mənə xəbər çatdı ki, yeni binadakı mənzillərdən biri bizim ailəyə veriləcək. Həmin gün sevinc, kədər və qürur qarışıq qəribə hisslər keçirdim. Duyuram ki, anasına göstərilən bu qayğıya görə oğlumun da ruhu şaddır. Dövlət qayğısını hiss etmək mənim də yaralı qəlbimə su səpir. Mənə, mənim kimi analara bu cür qayğı göstərən Ali Məclisin Sədrinə minnətdaram.

**Müşkünaz SALAHOVA**
***Şərur rayon Ələkli kənd sakini***

***Hörmətli redaksiya!***

Bu məktubu sizə ünvanlamağı biz şəhid ailələrinə göstərilən diqqət və qayğıya cavab olaraq özümə borc bildim.

Həyat yoldaşım xidməti dövründə II və III dərəcəli “Qüsursuz xidmətə görə”, Azərbaycan Silahlı Qüvvələrinin 90 və 95 illiyi, “Azərbaycan Ordusunun 100 illiyi” yubiley, Aprel döyüşlərində “Döyüşlərdə fərqlənməyə görə”, Vətən müharibəsində Cəbrayılın, Qubadlının azad olunmasına görə və “Vətən uğrunda” medalları ilə təltif edilən Elşən Orucov Vətən müharibəsində qəhrəmancasına şəhid olmuşdur. Şəhid ailəsinə göstərilən hərtərəfli dövlət qayğısı acımız nə qədər dərin olsa da, ürəyimizə su səpir. Ailəmizə, övladlarıma göstərilən bu qayğının ən bariz nümunəsi isə bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən mənzillə təmin edilməyimiz oldu. Mən bütün şəhid ailələri adından



Ali Məclisin Sədrinə və eləcə də bizi diqqətdə saxlayıb, hərtərəfli qayğı göstərən hər kəsə minnətdarlığımı bildirirəm.

Onu da qeyd etmək istəyirəm ki, Vətən müharibəsində əldə etdiyimiz şanlı tarixi Zəfərimizlə xalqımız sonsuz iftixar hissi keçirir. Övladlarım ataların bu zəfərdə rolu olması ilə daim qürur duyacaqlar. Biz qürurluyuq ki, düşmədən şəhidlərimizin qisası alınıb.

Şəhid ailələrinin, həmçinin qazilərimizin qayğı və dəstəklə əhatə olunması sahəsində dövlət tərəfindən aparılan işlər bizi gələcəyə daha ümidlə baxmağa ruhlandırır.

**Əfsanə ORUCOVA**
***Şahbuz rayonu***

## Hər sahədə nümunədir Naxçıvan

*Hörmətli redaksiya!*

Bu məktubu sizə Azərbaycanımızın qədim şəhəri Bərdədən yazıram. Ötən il yay tətilindən istifadə edib Bakı şəhərində yaşayan naxçıvanlı rəfiqəmlə Naxçıvanda yerləşən Əshabi-Kəhfi ziyarətə getmişdim. İş elə gətirdi ki, bu qədim diyarda bir neçə ay qalmalı oldum. Burada elə ilk günlərdən öz doğmalarımın əhatəsində olduğum kimi rahat bir mühitə düşdüyümdən darıxmağa imkanım olmadı. İki ay ərzində bu qədim diyarı gəzib tariximizin təməl daşının qoyulduğu cənnətməkanı tanıdım və sevdim.



İnsanları nə qədər səmimi, nə qədər ürəyi açıqdır, bunu buraya gələn hər kəs görüb. Ən çox diqqətimi çəkən və məni çox sevindirən bir vaxtlar yaşıllığın çox azlıq təşkil etdiyi diyarın indi gülüstana çevrilməsi oldu. Burada hər kəs həftənin şənbə gününü səbirsizliklə gözləyir. Çünki həmin gün dinimizdə də müqəddəs sayılan bir işlə – ağac əkib, yaşıllıqlara qulluq etməklə məşğul olurlar. Kimliyindən, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq, hər kəs bu iməciliklərdə fəal iştirak edir. Bütün bu zəhmətin nəticəsi isə gözoxşayan yaşıllıqlardır. Tarixi abidələr də qayğıdan kənarda qalmayıb. Onların yeni, bərpa edilmiş görüntüsü qədim tariximizin sübutu olmaqla bugünkü dövlət qayğısından da xəbər verir.

Bu qədim, qədim olduğu qədər də müasir görünüşə malik şəhərin ən ucqar məhəlləsində belə, tullantıya rast gələ bilməzsiniz. O qədər təmizdir ki, hər tərəf insanı valeh edir. Hər kəsin – müəllimin, şagirdin, tələbənin, dövlət qulluqçusunun, hətta taksi, avtobus sürücülərinin belə, xüsusi geyim forması var. Burada heç kim bir başqasının taksidə, marşrutda, küçədə, hətta bazarda unutduğu əşyaya toxunmaz. Naxçıvanın ən böyük ticarət obyekti “Cahan” Ticarət Mərkəzində tez-tez kiminsə unutduğu əşyasının tapıldığı, təhvil almaq üçün müraciət olunması ilə bağlı elanlar səsləndirildiyinin şahidi olarsınız. Bu kimi hallara rast gəlmək məni bir vətəndaş kimi çox sevindirdi.

Bu məktubu yazmaqda məqsədim odur ki, özümlə bu gözəllikləri diyarı, oranın safniyyətli, səmimi, qonaqpərvər insanları ilə bağlı hafizəmdən heç bir zaman silinməyəcək xoş xatirələr gətirmişəm.

Buradan qədim diyarın insanlarına deyirəm ki, Ulu Tanrı yurdunuzdakı sabitliyi, birliyi daim qorusun.

**Nailə MİRZƏYEVA**
***Bərdə şəhəri***

## Əməyimizin yüngülləşdirilməsi bizi zəhmətə daha ürəkdən bağlayır

***Salam, hörmətli redaksiya!***



1975-ci ildən şaxtada çalışıram. “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətinin 1 nömrəli şaxtasında yeraltı avadanlıqlar uzun müddət istismar olunduğu üçün fəaliyyəti dayandırıldı, Duzdağda kəşfiyyat quyuları qazıldı, texniki təhlükəsizlik qaydalarına tam cavab verən yeni şaxta yaradıldı. İyun ayında istifadəyə verilən yeni şaxtada istənilən qədər xammalı daşıya bilən, vaxt itkisinin qarşısını alan, mədən işçilərinin əməyini xeyli yüngülləşdirən texnikalar istifadəmizə verildi. Şaxtanın yaradılması istehsal həcminin və keyfiyyətinin artırılması ilə yanaşı, həm də onun ixrac imkanlarını da genişləndirib. Köhnə şaxtalardan əvvəllər 30-35 ton daşduz istehsal olunurdusa, yeni şaxtalardan hazırda 45-50 ton duz istehsal edilir.

Onu da deyim ki, bu gün “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni mədənində yaradılan şərait bizim tam təhlükəsiz mühitdə fəaliyyətimizə imkan verir. Mədən işlərinə yalnız xüsusi ixtisas hazırlığı olan mütəxəssislər cəlb edilir, Fövqəladə Hallar Nazirliyi tərəfindən təhlükəsizlik qaydaları və texnoloji rejim mütəmadi nəzarətdə saxlanılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi şaxtanın dağ-mədən-texniki, hidrogeoloji və ekoloji vəziyyətini davamlı yoxlayır. Həmçinin iş zamanı xüsusi rejim formasından istifadə olunur. Eyni zamanda təhlükəsizlik qaydalarına əməl olunması məqsədilə aidiyyəti qurumlar tərəfindən maarifləndirici tədbirlər aparılır, kurslar keçirilir.

Əməyimizin yüngülləşdirilməsi, texniki təhlükəsizliyimizin qayğısına qalınması bizi zəhmətə daha ürəkdən bağlayır, daha da ruhlandırır. Biz də, öz növbəmizdə, yaradılan şəraitdən səmərəli istifadə edəcək, muxtar respublikanın inkişafı naminə var-qüvvəmizlə çalışacaq, doğma diyarımızın rəmzinə çevrilən bu təbii sərvətin itkisiz çıxarılmasına daha çox səy göstərəcəyik.

**Nurəddin MƏMMƏDOV**
***5 nömrəli duz mədəninin rəisi***

## “STEAM yay məktəbi”ndə vaxtımız maraqlı və əyləncəli keçdi



***Salam, hörmətli redaksiya!***

Bu məktubu yazmaqda məqsədim Ağbulaq İstirahət Mərkəzində təşkil olunan “STEAM yay məktəbi”ndə iştirakımla bağlı təəssüratlarımı bölüşməkdir. Onu deyim ki, buraya seçildiyimi öyrənəndə çox sevindim. İlk dəfə iştirak etdiyim bu məktəbdə çoxlu dostlar qazandım, vaxtım çox maraqlı və əyləncəli keçdi. Digər məktəb şagirdləri ilə birgə iştirak etdiyim intellektual və idman oyunları, baxdığımız filmlər vaxtımızı səmərəli keçirməklə yanaşı, biliyimizin zənginləşməsində də mühüm rol oynadı. Bu məktəbdə STEAM təhsili üzrə indiyədək öyrəndiklərimizi ümumiləşmiş formada yenidən tətbiq etdik. Yaradıcı və düşüncə qabiliyyətimizi artırmağa kömək edən qrup şəklində təşkil edilən dərs prosesində təlimçi-müəllimlərimizin köməyi ilə yeni texnologiyalarla işlədik, STEAM metodologiyalarını, 3D modelləşdirməni, robotların hazırlanmasını, müxtəlif proqramlaşdırma modullarını öyrəndik. Orada 3D qələmlə STEAM-ın maketini hazırladım. Təlimi uğurla başa vurduğum üçün təşkilatçılar tərəfindən mənə sertifikat verildi. STEAM dərslərində öyrəndiklərimin gələcəkdə çox faydalı olacağına inanıram. Bu məktəbi təşkil edənlərə məktub vasitəsilə çox sağ olun deyir, yenidən “STEAM yay məktəbi”ndə iştirak etməyi arzu edirəm.

**Rəvan QULUZADƏ**
***Ordubad rayonu, Unus kənd tam orta məktəbinin VII sinif şagirdi***

### *İtmişdir*

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Ramazanov Vaqif Əziz oğlunun adına olan JN-142A inventar nömrəli 10205038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və JN-140 inventar nömrəli 10205038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Telli Məmmədova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 651**